AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 5/4

Bakı şəhəri 11 fevral 2015-ci il

1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 70-ci ildönümünə həsr olunmuş tədbirlər haqqında

9 may 2015-ci ildə 1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 70 illik yubileyidir. Yubileyin keçirilməsini təmin etmək məqsədilə Müstəqil Dövlətlər Birliyi ölkələri hökumət başçıları Şurasının 28 fevral 2014-cü il tarixli qərarı ilə “Əsas Tədbirlər Planı” təsdiq edilmişdir. Tədbirlər Planının 6-cı bəndi ilə AMEA tərəfindən “1941-1945-ci illər Böyük Vətən Müharibəsinin qələbəsində alimlərin rolu” beynəlxalq konfransının keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 2014-cü il tarixli məktubuna əsasən Moskva şəhərində keçirilməsi nəzərdə tutulan Böyük Vətən Müharibəsində Qələbənin 70 illik yubileyinə həsr olunmuş “Biz nasizmə qarşı birlikdə idik” adlı beynəlxalq sərgi layihəsində Azərbaycan Milli Elmlər Akademiyasının iştirakı nəzərdə tutulur.

1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 70 illik yubileyi münasibətilə müvafiq tədbirlərin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. 5 may 2015-ci il tarixində Respublika Veteranlar Şurası ilə birlikdə “Böyük Vətən Müharibəsinin Qələbəsində Azərbaycan alimlərinin rolu” mövzusunda beynəlxalq konfransın keçirilməsi məqsədəuyğun hesab edilsin.
2. Konfransın keçirilməsini təmin etmək məqsədilə aşağıdakı tərkibdə komissiya yaradılsın:

| | |
|---|---|
| Akademik İbrahim Quliyev | AMEA-nın vitse-prezidenti, sədr |
| Akademik İsa Həbibbəyli | AMEA-nın vitse-prezidenti |
| Akademik Tofiq Nağıyev | AMEA-nın vitse-prezidenti |

| | |
|---|---|
| Akademik<br>Rasim Əliquliyev | AMEA-nın akademik-katibi |
| Akademik<br>Teymur Kərimli | AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi |
| Akademik<br>Dilqəm Tağıyev | AMEA-nın Kimya Elmləri Bölməsinin akademik-katibi |
| Akademik<br>Fəxrəddin Qədirov | AMEA-nın Yer Elmləri Bölməsinin akademik-katibi |
| Akademik<br>Əhliman Əmiraslanov | AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi |
| Akademik<br>Qərib Məmmədov | AMEA-nın Aqrar Elmlər Bölməsinin akademik-katibi |
| Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>Fətəli Abdullayev | AMEA-nın İşlər idarəsinin müdiri |
| Akademik<br>Vaqif Abbasov | AMEA-nın Neft Kimya Prosesləri İnstitutunun direktoru |
| Akademik<br>Telman Əliyev | AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun direktoru |
| Akademik<br>Nailə Vəlixanlı | AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin direktoru |
| Akademik<br>Ramiz Məmmədov | AMEA-nın Goğrafiya İnstitutunun direktoru |
| AMEA-nın müxbir üzvü<br>Validə Əlizadə | AMEA-nın Botanika İnstitutunun direktoru |
| AMEA-nın müxbir üzvü<br>Rafiq Qasımov | AMEA-nın Birləşmiş Veteranlar şurasının sədri |
| Eldar Quliyev | AMEA-nın Birləşmiş Veteranlar Şurasının sədr müavini |

3. Komissiyaya (akademik İbrahim Quliyev) tapşırılsın ki, konfransın keçirilməsini təmin etmək üçün Tədbirlər planı hazırlansın, AMEA rəhbərliyi ilə razılaşdırmaqla icrası təmin edilsin.

4. AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlıya tapşırılsın ki, Moskva şəhərində keçiriləcək "Nasizmə qarşı birlikdə idik" sərgisində Azərbaycan Milli Elmlər Akademiyasının iştirakından irəli gələn məsələləri həll etsin.
5. Azərbaycan alimlərinin Böyük Vətən müharibəsinin qələbəsinə verdiyi töhfələri əks etdirən Georgi Zaplatinin "Vətənə və elmə xidmət etdilər..." kitabının yenidən işlənilmiş variantının nəşri təmin edilsin.
6. AMEA-nın İşlər idarəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Fətəli Abdullayevə və AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinin rəisi, texnika üzrə fəlsəfə doktoru İlqar Quliyevə tapşırılsın ki, Böyük Vətən Müharibəsinin 70-ci ildönümü münasibətilə AMEA-da həyata keçiriləcək tədbirlərin icrasından irəli gələn müvafiq məsələləri həll etsinlər.
7. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
RƏYASƏT HEYƏTİ
PROTOKOL
ŞÖBƏSİ
MƏRKƏZİ APARAT